

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 231 (21.383)

25 noyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası öz işinə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açıb. O deyib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, yeni seçilmiş Milli Məclisin birinci iclasını ən yaşlı deputat aparır. Bu missiya Milli Məclisin deputatı Fəttah Heydərova nəsib olub.

İclasa sədrlik edən Fəttah Heydərov beşinci çağırış Milli Məclisin iclasını açıq elan edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Fəttah Heydərov beşinci çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

Dövlətimizin başçısı beşinci çağırış Milli Məclisin birinci iclasında nitq söyləyib.

Sonra Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, parlamentin sədri vəzifəsinə deputat Oqtay Əsədovun namizədliyi irəli sürülüb.

Gizli səsvermədə iştirak edən 124 deputatın hamısı Oqtay Əsədovun namizədliyinin lehinə səs verib. Beləliklə, Oqtay Əsədov Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçilib.

Sonra Milli Məclis Sədrinin müavinləri və Milli Məclis komitələrinin sədrləri seçiliblər.

Bununla da beşinci çağırış Milli Məclisin birinci iş günü başa çatıb.

## Vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş növbəti müsabiqə başa çatıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu il avqustun 6-da elan edilmiş müsabiqəyə 36 dövlət orqanında 299 vakant vəzifə çıxarılmışdı. Həmin vəzifələrin tutulması üçün 445 nəfər sənəd təqdim etmişdi.***

Komissiyanın test mərkəzində 16-29 sentyabr 2015-ci il tarixlərdə keçirilən və 404 namizədin iştirak etdiyi müsabiqənin test imtahanları mərhələsində namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, 100 sual təqdim edilmiş, namizədlərdən 161-i müvafiq keçid balını toplaya bilmişdir. Həmin namizədlərdən 135-i müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim etmişdir.

Müsahibə mərhələsinə hazırlıq üçün namizədlərə seçdikləri vəzifə üzrə proqramlar verilmiş, müsahibə qrupunun üzvləri ilə seminar-treninq keçirilmişdir.

Bu il noyabrın 10-dan 16-dək komissiyanın test mərkəzində keçirilən müsahibə mərhələsində iştirak etmiş 131 namizəddən 63-ü müvəffəqiyyət qazanmışdır. Müsahibə zamanı namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına uyğun suallar verilmişdir. Müsahibələrdə obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, komissiyanın və dövlət orqanlarının nümayəndələri iştirak etmiş, müsahibə prosesinin videoçəkilişi aparılmışdır.

Müsabiqədə müvəffəqiyyət qazanmış 63 namizəddən 61-nin sənədləri iddia etdikləri vəzifəyə təyin olunmaq üçün dövlət orqanlarına göndərilmiş, 2 namizəd ehtiyat kadr siyahısına salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## Növbəti əmək yarmarkalarına başlanılıb

### İlk əmək yarmarkası dünən Sədərək rayonunda keçirilib

"Muxtar respublikada əmək bazarının tənzimlənməsində, eləcə də əhalinin məşğulluq məsələlərinin həllində əmək yarmarkalarının təşkili mühüm əhəmiyyət kəsb edir. İşaxtaran vətəndaşların işlə təmin olunmasında böyük rol oynayan əmək yarmarkaları bölgələrdə, ümumilikdə isə regionda əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" isə bu məqsədlə həyata keçirilən tədbirlərə böyük stimul olmaqla yanaşı, sahibkarlığın inkişaf etdirilməsinə, yeni iş yerlərinin yaradılmasına da öz töhfəsini verib".

Bu fikirlər dünən Sədərək rayonunda keçirilən əmək yarmarkasında rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov tərəfindən səsləndirilib. Qeyd olunub ki, dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları tərəfindən rayondakı idarə, müəssisə və təşkilatlarda, eyni zamanda sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplanılaraq əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edilir.

Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Bəxtiyar Mahmudov çıxışında bildirib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Muxtar respublikamızda sahibkarlığın inkişaf etdirilməsi, müxtəlif iqtisadi layihələrin həyata keçirilməsi üçün yaradılmış münbit şərait yeni iş yerlərinin açılmasına öz töhfəsini verir. Sərhəd bölgəsi olan Sədərək rayonunda da bu istiqamətdə görülən işlər insan amilinə verilən dəyər kimi qiymətləndirilir.

Çıxışlardan sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 5 təşkilatdan 59 boş iş yerinin çıxarıldığı tədbirdə 10 nəfərə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası bu gün Kəngərli rayonunda təşkil olunacaq.

## Naxçıvan Dövlət Universiteti ilə Ufa Dövlət Neft Texniki Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb

***Azərbaycanla Rusiya arasında təhsil sahəsində tarixən geniş əlaqələr mövcud olub. "ADA" Universitetində keçirilən Azərbaycan-Rusiya Universitetlərarası Forum da Rusiya ilə ölkəmiz arasında universitetlərarası əməkdaşlığın qurulması və elmi əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.***

Forumda hər iki ölkənin aparıcı universitetlərinin rektorları və tanınmış elm xadimləri iştirak etmişlər.

Forum çərçivəsində Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmovun Ufa Dövlət Neft Texniki Universitetinin rektoru Ramil Baxtizin ilə görüşü olmuşdur. Görüş zamanı elmin, təhsilin inkişafına dair birgə əməkdaşlığın qarşılıqlı faydaları və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Görüşdən sonra hər iki ali təhsil müəssisəsi arasında elmi-tədqiqat və tədris sahələrində əlaqələrin inkişafına dair əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqavilədə iki universitet arasında təhsil sahəsində əməkdaşlığın inkişafında müəllim və tələbə mübadilələrinin həyata keçirilməsi, müştərək elmi-tədqiqat layihələri, ortaq konfrans, seminar və tədbirlərin təşkili nəzərdə tutulmuşdur.

**Mina QASIMOVA**

## Naxçıvan Muxtar Respublika Xəstəxanasının binasında son tamamlama işləri aparılır

***Muxtar respublikada sosial-iqtisadi sahələrin bütün istiqamətləri üzrə müşahidə olunan uğurlu inkişaf səhiyyə sahəsini də əhatə edir. Əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən birinə çevrilib.***



Son illərin möhtəşəm quruculuq ünvanlarından olan Naxçıvan Diaqnostika-Müalicə və Doğum mərkəzləri, Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya, Onkoloji, Gigiyena və Epidemiologiya, Naxçıvan Şəhər Təcili Tibb, Naxçıvan Uşaq Bərpa mərkəzləri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi, Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Ağciyər, Psixi Xəstəliklər dispanserləri, Darıdağ Arsenli Su Müalicəxanası, rayon mərkəzi xəstəxanaları və digər obyektlər bu gün bölgədə müasir səhiyyə müəssisələrindəndir. Təkcə ötən il Naxçıvanda 13 səhiyyə müəssisəsinin istifadəyə verilməsi muxtar respublikada səhiyyə sahəsinə göstərilən xüsusi diqqət və qayğıdan xəbər verir.

Ötən ilin sentyabr ayından yenidən qurulmasına başlanan Naxçıvan Muxtar Respublika Xəstəxanasında son tamamlama işləri görülür. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aparılan yenidənqurma prosesində binaya mansardtipli bir mərtəbə əlavə olunub. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada tikinti işləri yekunlaşıb. Binada hər cür şəraitə malik 109 palata yaradılıb. Xəstəxana binasının 4 korpusunun hər birində yük və sərnişin liftləri olmaqla, 10 lift quraşdırılıb. Binanın fasad hissəsi klassik və müasir memarlıq elementləri ilə zənginləşdirilib. Fasadda üzlük daş, poliestr və digər yerli inşaat materiallarından istifadə olunub. Binanın zirzəmi hissəsində masaj salonu, SPA mərkəzi, hovuz, duş kabinələri, morq, həkim və tibb bacıları üçün otaqlar və xidməti yerlər yaradılıb. Birinci mərtəbə stomatoloji kabinələr, təcili yardım, palatalar, fizioterapiya, ot vannası və Naftalan nefti ilə müalicə kabinələri, rentgen, əməliyyat otaqları üçün nəzərdə tutulub. Qalan mərtəbələr isə xəstəxananın şöbə və bölmələri, həkim və tibb bacıları, palatalar və digər müayinə və müalicə otaqları, laboratoriyalar, istirahət guşələri üçün ayrılıb. Binanın sonuncu mərtəbəsində geniş akt zalı, tibb təhsili alan tələbələr üçün siniflər və kafe fəaliyyət göstərəcək. Bütün bunlarla bərabər, xəstəxana binasından 45-50 metr kənarda yeni köməkçi bina da tikilib. Ümumiyyətlə, müasir layihə əsasında yenidən qurulan xəstəxana binası yaxın vaxtlarda nəinki muxtar respublikanın, hətta bütün regionun ən nəhəng səhiyyə ocaqlarından biri kimi fəaliyyətə başlayacaq.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqlarla təchiz olunması ilə bağlı tədbirlər haqqında ölkə başçısının 2014-cü il 11 aprel tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə doqquz milyon manat vəsait ayrılıb. Xəstəxanada müasir tibbi avadanlıqlar quraşdırılır. Bu tibb müəssisəsi müasir maqnit rezonans, kompüter-tomoqrafiya aparatları, rentgenskopiya və rentgenoqrafiya qurğuları ilə təchiz olunacaq. Burada quraşdırılan ultrasəs müayinə, süni tənəffüs və narkoz aparatları, fizioterapiya və hidroterapiya, müalicəvi idman üçün avadanlıqlar, stomatologiya və oftalmologiya aparatları dünyanın aparıcı ölkələrində istifadə edilən tibbi avadanlıqlardandır.

**Xəbərlər şöbəsi**

# Sahibkarlığın inkişafı müstəqillik illərinin böyük nailiyyətlərindən biridir

***Müasir cəmiyyətin iqtisadi və mədəni inkişafının əsas motivləri arasında insanın yaradıcı əməyinin mühüm rolu vardır. Bütün sahələrdə insan həyatını yaxşıya doğru dəyişdirən, innovativ yenilikləri ilə texnologiyanın da inkişafını şərtləndirən sahibkarlıq, bu mənada, əsl yaradıcılıq meydanıdır. Burada hər kəsin qüvvəsini sınamağa, bacarığını ortaya qoyub cəmiyyətə faydalı olmağa imkanı vardır. Əgər sahibkarlıq üçün münbit şərait yaradılıbsa, onda çəkilən zəhmət də gec-tez öz bəhrəsini verəcəkdir.***



Sahibkarlıq fəaliyyəti bacarıq qədər eyni zamanda səbir və qətiyyət tələb edən bir sahədir. Əgər bu gün dünyanın tanınmış iri firmalarının keçdiyi inkişaf yoluna baxsaq, bir çoxlarının on illər keçəndən sonra ixtisaslaşma və rəqabət şərtlərinə necə uyğunlaşdıqlarını görə bilərik. Buna görə də sərbəst bazar iqtisadiyyatının yenicə təşəkkül tapdığı, sənayeləşmə və iqtisadi təhlükəsizlik məsələlərinin aktual olduğu bir şəraitdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi yalnız dövlət dəstəyi ilə həyata keçirilə bilər. 1990-cı illərin əvvəllərindən muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin təşəkkül tapmasınadək keçilən yol və əldə olunan müasir səviyyə bu qənaətə gəlməyə imkan verir.

### Sahibkar və cəmiyyət

Geniş biznesə gedən yolda uğurlu günlərlə bərabər, çətinliklərlə dolu vaxtlar da vardır. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, sahibkarın özü də yaşadığı cəmiyyətin bir üzvüdür və onun gördüyü işlər bazarın tələbi ilə yanaşı, həm də sosial sifariş nəticəsində uğurlu layihəyə çevrilə bilər. Başqa sözlə, sahibkar zəmanəsinin ruhu ilə nəfəs alıb, öz işi ilə insanların ondan gözlədiyini verə bilirsə, o zaman həm özünə, həm də başqalarına faydalı olacaqdır. Muxtar respublikamızda sahibkarlığın inkişafı yoluna nəzər saldıqda, görürük ki, ötən dövr ərzində bu vacib sahənin öz üzərinə götürdüyü öhdəliklər, ümumən, bazar iqtisadiyyatı şəraitində mövcud olan dövlət-vətəndaş-sahibkar münasibətlərinin yetkinləşməsi ilə həllini tapmış və hazırda özəl sektorun ümumi daxili məhsuldakı payı 87 faizə çatmışdır. Əgər nə zamansa sahibkar deyəndə, yalnız kiçik ticarətlə məşğul olan bir qrup insandan danışılırdısa, indi sahibkarlarımızın geniş layihələri sayəsində yüzlərlə növ və çeşiddə hazır məhsul, onlarla xidmət növü şəhərimizdəki ticarət mərkəzlərindən tutmuş ən ucqar kənddəki xidmət mərkəzinədək muxtar respublikanın hər yerində rifahımıza xidmət etməkdədir. Məhz sahibkar və cəmiyyət əlaqələrinin dərinləşməsi ilə bir zaman kiçik biznesə işə başlayanlar təkcə özləri üçün deyil, bütün cəmiyyət qarşısındakı məsuliyyətlərini dərk edərək son 20 il ərzində muxtar respublikada yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül, yeyinti və kənd təsərrüfatı təyinatlı 844 istehsal və xidmət sahələri yaradılmasına müvəffəq oldular. Muxtar respublikada yerli istehsalın inkişaf etdirilməsi daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynadı. İqtisadi təhlükəsizliyin əsası sayılan bu şərtlər isə ümumilikdə, blokadada yaşayan Naxçıvan Muxtar Respublikası üçün ikiqat həyati əhəmiyyətli idi.

### Sahibkar və vətəndaş

Sahibkar və vətəndaş münasibətləri çoxşaxəlidir. Hər bir vətəndaşın sahibkarlara qarşı olan tələbkarlığı qədər sahibkarın da öz vətəndaşından umduğu təəssübkeşlik vardır. Bu mənada, ötən dövr ərzində yerli istehsal məhsullarımıza olan marağın artmasını, muxtar respublikanın istehlak bazarında idxaləvəzləyici yerli məhsulların üstünlüyünü ən mühüm uğurlarımızdan biri adlandırmaq olar. Sahibkarlarımız rəqabətədavamlılıq kimi sərt biznes qanununun tələbinə uyğunlaşmaqla eyni zamanda muxtar respublika sakinlərinin də gözlədiyi keyfiyyət standartlarına uyğun məhsullar istehsal etməyi mənimsədilər. İndi artıq muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 119 növdə, 510 çeşiddə ərzaq, 238 növdə, 599 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 357 növdə, 1109 çeşiddə məhsul istehsal olunur. İstehsal olunan 107 növdə ərzaq, 232 növdə qeyri-ərzaq olmaqla, 339 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi muxtar respublikamızda idxaldan asılılığın ciddi şəkildə azaldılmasına, əhali tələbatının keyfiyyətli məhsullarla ödənilməsinə şərait yaratmışdır. Muxtar respublikada sahibkarlığın inkişafı nəticəsində yaradılan yeni iş yerləri bu sahənin sosial məsələlərin həllindəki rolundan xəbər verir. Təkcə 1 oktyabr 2003-cü ildən 1 oktyabr 2015-ci il tarixədək dövrdə yaradılan müəssisələrdə 65 min 700-dən artıq yeni iş yeri açılmışdır.



### Sahibkar və dövlət

Azad bazar iqtisadiyyatında sahibkarlığın inkişafına verilən dövlət dəstəyinin əhəmiyyətini dünyanın ən inkişaf etmiş ölkələrinin timsalında görmək olar. Bu dövlətlərdə aparılan iqtisadi inkişaf siyasəti özəl sektorda adi kərpic istehsalından tutmuş kosmik sənaye məhsullarınadək mürəkkəb texnoloji avadanlıqlar istehsalına şərait yaradır. Sahibkarlığın müxtəlif sahələrə nüfuz etməsi ilə yaranan işgüzar münasibətlər ona gətirib çıxarır ki, rəqabət şəraitində özəl sektorda hər bir məhsulun ən yaxşısının, hər bir xidmətin ən keyfiyyətlisinin istehsalı üçün əsl yarış başlanır. Bu da hər bir dövlət üçün zəruri olan və bir çoxları tərəfindən "dayanıqlı inkişaf" kimi də adlandırılan bir dinamikanın ən sadə formuludur. Ona görə də dövlətin özəl sektora olan diqqətinə, onun buradakı tənzimləyici roluna ölkənin və millətin gələcəyi prizmasından yanaşmaq lazımdır.

Muxtar respublikamızda sahibkarlığa göstərilən dövlət dəstəyini bir çox cəhətlərinə görə xarakterizə etmək mümkündür. Bunlar ilk olaraq muxtar respublikanın sosial-iqtisadi inkişaf istiqamətlərinə və düşdüyü blokada şəraitinin çətinliklərinə görə gələcək prioritetlərin müəyyən edilməsi ilə əlaqədar olmuşdur. Muxtar respublikanın yerli xammal və enerji resurslarının, əhali ehtiyatlarının və ixtisaslı kadrların gücündən rasional istifadə olunması şərti ilə iqtisadi layihələrə start verilməsi məhz 20 il əvvəl bazar iqtisadiyyatına keçmiş bir cəmiyyətin reallığı idi. Belə bir şəraitdə dövlətin qarşısında duran vəzifə muxtar respublikaya investisiya axınını sürətləndirmək, istifadəsiz qalmış sahələri canlandırmaq və indiyədək heç bir vaxt Naxçıvanda görülməsi mümkün sayılmamış layihələri gerçəkliyə çevirmək idi. Və ötən dövrdə bütün bu işlər məhz dövlət-sahibkar işbirliyinin nəticəsində mümkün olmuşdur.



Qısa müddətdə muxtar respublika iqtisadiyyatının gücləndirilməsi üçün görülmüş bu işlər öz bəhrəsini vermişdir. Belə ki, əgər 1995-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 3 milyon 49 min manat idisə, bu göstərici 2014-cü ildə 303,3 dəfə artaraq 925 milyon manat təşkil etmişdir. Ümumilikdə, son 20 ildə muxtar respublika iqtisadiyyatına 6 milyard 276 milyon manat investisiya yönəldilmişdir. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişaf etdirilməsi, muxtar respublikanı aqrar regiondan sənaye regionuna çevirmək üçün qarşıya konkret vəzifələr qoyulmuşdur. Və nəticədə, 1995-ci ilin sonunda muxtar respublikada mövcud olmuş cəmi 56 sənaye müəssisəsinin sayı 15,1 dəfə artmış, istehsal olunmuş sənaye məhsulunun həcmi isə 97,6 dəfə artaraq 891 milyon manata çatmışdır.



Muxtar respublikada sahibkarlığa dövlət dəstəyi xüsusən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə güclü təkan vermişdir. Biznesə yeni başlayan kiçik və orta sahibkarlıq qurumlarına maliyyə dəstəyi göstərmək və bölgələrdə əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində Sahibkarlığa Kömək Fondu yaradılmış, fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilməkdədir. Belə ki, 2000-ci ildən 1 oktyabr 2015-ci il tarixədək sənaye, xidmət, kənd təsərrüfatı təyinatlı 1196 layihənin maliyyələşdirilməsinə 117 milyon manatdan çox vəsait yönəldilmişdir.



Naxçıvanlı sahibkarların istehsal etdiyi məhsulların sorağı artıq onun hüdudlarını çoxdan aşmışdır. Bu gün muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 40 müəssisədə istehsal olunan ixracyönümlü məhsullar Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Litva, Türkmənistan, Rusiya və İran kimi ölkələrə göndərilir. Naxçıvandan xaricə ixrac edilən əmtəələr arasında elektrik enerjisindən tutmuş mineral sulara, dekorativ daş məhsullarından avtomobillərə, tikinti materiallarından sementə, mebel məhsullarınadək çox sayda hazır məhsul vardır. Naxçıvanlı sahibkarların xarici ticarət əlaqələrinin genişlənməsi ilə 2009-cu ildən başlayaraq muxtar respublikanın xarici ticarətində müsbət saldo yaranmışdır.

Sahibkarların məhsullarının dünya bazarında tanınmasına imkan verən ən son texnoloji yeniliklərlə təminat məsələsi dövlətin diqqət mərkəzindədir. Sahibkarların istehsal etdiyi məhsullara ştrixkod almağı asanlaşdırmaq məqsədilə 2013-cü ilin yanvar ayında "Qlobal Standart 1" MMC ilə "Naxçıvan Biznes Mərkəzi" MMC arasında müqavilə imzalanmış, müqavilə əsasında 37 yerli istehsalçı şirkət beynəlxalq GS 1 sisteminə daxil edilmiş, 627 yeni ştrixkod verilmişdir. Sahibkarların dünya biznes mühiti ilə əlaqələrini daha da genişləndirmək məqsədilə xarici dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə ardıcıl və ənənəvi biznes forumlar keçirilmişdir. 2004-2010-cu illərdə təşkil edilən Azərbaycan-Türkiyə biznes forumları, 2014-cü ildə 75 xarici şirkətin və 120-dən çox yerli sahibkarın iştirakı ilə Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü biznes forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısı muxtar respublikanın işgüzar həyatında əlamətdar hadisələrdəndir. Ümumilikdə, 2002-2015-ci ilin ötən dövr ərzində yerli və xarici ölkələrdə keçirilən 217 biznes-forum, sərgi və konfransda 1177 sahibkarın iştirakı təmin edilmişdir. Muxtar respublikamızda yerli məhsulların keyfiyyətinin yüksəldilməsi, həmin malların xarici bazarlara çıxışı, yerli brendlərin yaradılması və digər sahələrdə mövcud fəaliyyətlərin təkmilləşdirilməsi məqsədilə ötən il Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmişdir.

*Naxçıvanlı sahibkarlara göstərilən dövlət qayğısı bu vacib sahəyə maraq göstərənlərin sayını hər keçən gün artırmaqdadır. Təkcə 2015-ci ilin 9 ayı ərzində muxtar respublikada 17 hüquqi və 2307 fiziki şəxs qeydiyyata alınmışdır. İş adamlarının sayının çoxalması isə cəmiyyətin bir çox problemlərinin həlli deməkdir. Yerli sahibkarlar ilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vurğuladığı kimi:* ***"Sahibkarlar cəmiyyətin ən təşəbbüskar, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalatda tətbiq edən sosial təbəqəsidir. Cəmiyyətin sosial təbəqəsi kimi onlar yaradılmış şəraitdən, maliyyə imkanlarından, texnikadan, torpaqdan istifadə edirlər. Bu gün dövlət sahibkarlığın inkişafı üçün hər cür dəstəyi göstərir. Bundan sonra da göstərəcəkdir. Sahibkarlar da, öz növbəsində, dövlətin və cəmiyyətin inkişafı üçün öz dəstəyini göstərməlidirlər... Bu yolla gedərək, dövlət-sahibkar-işçi münasibətlərində qarşılıqlı inam, hörmət və etibarı daha da möhkəmləndirərək qarşıda dayanan vəzifələrin icrasına nail olmalıyıq".***

**✍ Əli CABBAROV**

**Yazı "Naxçıvan: müstəqillik illərində" gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür**

***Noyabrın 24-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində həkim-cərrah, tibb üzrə fəlsəfə doktoru, dosent İsa Abdullayevin "Peritonitlər" kitabının təqdimat mərasimi keçirilmişdir.***

# Daha bir tibbi kitabın təqdimat mərasimi keçirilmişdir





Səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, səhiyyə sisteminin yenidən qurulması, müasir dünya standartlarına uyğunlaşdırılması bu xidmətin keyfiyyətcə daha da yaxşılaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması, ana və uşaqların, ahıl vətəndaşların sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün görülən işlər sırasında muxtar respublikada tibb elminə dair yeni kitabların nəşri mühüm əhəmiyyət kəsb edir və yaradılmış elmi mühit müxtəlif sahələrdə sanballı tədqiqat əsərlərinin meydana gəlməsinə şərait yaradır. Bu, səhiyyə sisteminə də aiddir. Son illər səhiyyənin tarixinə aid kitabların, dərslik və monoqrafiyaların təqdimatı artıq ardıcıl xarakter daşıyır. Həkim-cərrah İsa Abdullayevin "Peritonitlər" kitabı da bu qəbildəndir.

Səhiyyə naziri kitabın məziyyətlərindən danışmış, müəllifi təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirmişdir ki, müstəqil Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu bütün istiqamətlərdə uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ardıcıl və hərtərəfli qayğısı, möhtəşəm tərəqqiyə yönələn müdrik siyasəti sayəsində Naxçıvan hər keçən gün yeni bir uğura imza atır. Muxtar respublikada elə bir sahə tapmaq mümkün deyil ki, o, inkişafdan, tərəqqidən kənarda qalsın. Tarixi saxlanılmaqla müasirləşən Naxçıvanda bütün sahələr, o cümlədən səhiyyə, təhsil, elm durmadan inkişaf edir. Bu inkişafın nəticəsidir ki, səhiyyə sistemi tamamilə yenidən qurulmuş, əhalinin sağlamlığının qorunması diqqətdə saxlanılmış, səhiyyə müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırılmış, bir sözlə, müasir səhiyyə infrastrukturu yaradılmışdır.

Qeyd olunmuşdur ki, muxtar respublika səhiyyəsində dünya tibb elminin nailiyyətlərinin və müasir avadanlıqların tətbiqi səhiyyə işçilərinin bilik səviyyəsinə olan tələbləri artırmışdır. Muxtar respublikada ali və orta ixtisas tibb təhsilinə, eləcə də səhiyyə işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsinə dövlət qayğısı bu sahənin inkişafına böyük töhfə vermiş, səhiyyə xidmətini yaxşılaşdırmışdır. Naxçıvanda ilk dəfə böyrək köçürülməsi, yemək borusunun plastikası, süni oynaq köçürülməsi, açıq ürək, göz və digər bu kimi əməliyyatların həyata keçirilməsi muxtar respublikada səhiyyə xidmətinin səviyyəsini xarakterizə edən əsas faktorlardır. Əvvəllər bu əməliyyatları Türkiyə Respublikasından və Bakı şəhərindən dəvət olunan yüksəkixtisaslı mütəxəssislər aparırdısa, bu gün bu əməliyyatlar Naxçıvan həkimləri tərəfindən də aparılır.

Diqqətə çatdırılmışdır ki, Naxçıvan Muxtar Respublikasında həkimlərin bilik və bacarıqlarının artırılmasında səhiyyənin aktual problemlərinə həsr olunan yeni kitabların nəşrinin də böyük əhəmiyyəti vardır. Sevindirici haldır ki, bu prosesdə muxtar respublikanın alim və mütəxəssisləri fəallıq göstərir, yaradılmış şəraitdən səmərəli istifadə edirlər. Onlar elmi araşdırmalar aparır və təcrübi biliklərini ümumiləşdirərək kitab halında nəşr etdirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu cür fəaliyyəti dəstəkləyir, elmi dəyəri yüksək olan kitabların təqdimatını, ictimaiyyətə çatdırılmasını diqqətdə saxlayır.

"Peritonitlər" kitabının təqdimatı da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında keçirilir. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Cərrahiyyə şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru İsa Abdullayevin çoxillik tədqiqatları nəticəsində ərsəyə gələn bu kitab cərrahiyyənin ən aktual məsələlərindən biri olan peritonitlərin etiologiyası, patogenezi, klinikası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuşdur. Peritonit probleminin həllinə yönəldilmiş tədqiqatlara və əldə olunan nailiyyətlərə baxmayaraq, bu günədək bu patologiyanın diaqnostikasının və müalicəsinin çoxlu açılmamış məsələləri mövcud olmaqdadır. Müəllif peritonitə səbəb olan nadir xəstəlikləri ümumiləşdirmiş, aid olduğu patologiyanı tam əhatə etmişdir. Bu da kitabın elmi dəyərini artırmışdır. Kitab tibb təhsili alan tələbələr, ordinatorlar, müəllimlər və həkimlər üçün faydalı mənbədir.

Rəhman Məmmədov "Peritonitlər" kitabının müəllifi, tibb üzrə fəlsəfə doktoru İsa Abdullayevə təşəkkürünü bildirmiş, ona yeni yaradıcılıq uğurları arzulamışdır.

Sonra tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılov "Peritonitlər" kitabının elmi və praktik əhəmiyyəti", Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim anestezioloq-reanimatoloqu Bəxtiyar Hüseynov "Peritonitlər" kitabının tədris vəsaiti kimi əhəmiyyəti" mövzularında çıxış etmişlər.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Cərrahiyyə şöbəsinin müdiri, həkim-cərrah, tibb üzrə fəlsəfə doktoru, dosent İsa Abdullayev müəllifi olduğu monoqrafiyanı muxtar respublikada yaradılmış elmi mühitin bəhrəsi kimi dəyərləndirmiş, fəaliyyətinə və yaradıcılığına verilən yüksək qiymətə görə öz minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, kitabda qarın boşluğu orqanlarının və onun qişalarının iltihabının müalicə üsullarından bəhs olunur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Fənn kurikulumlarının tətbiqinə həsr olunmuş elmi-praktik konfrans

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutunun təşkilatçılığı ilə Sədərək kənd 1 nömrəli tam orta məktəbdə "Yeni təlim metodları və müasir fənn kurikulumlarının tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Firudin Zamanov açıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Yeni təlim metodları və müasir fənn kurikulumlarının tətbiqi", filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazlı "Kurikulumun tətbiqi və qarşıya çıxan problemlərin həlli yolları", Sədərək kənd 2 nömrəli tam orta məktəbin direktoru Elmira Dadaşova "Məktəbdə müasir kurikulumun təşkili təcrübəsindən" mövzularında məruzələrlə çıxış ediblər.

Qeyd olunub ki, bu gün yetişməkdə olan nəslin inkişafını, tərbiyəsini düzgün təşkil etmək, sürətlə artan elmi-texniki yeniliklərin əsaslarını onlara mənimsətmək müasir təhsil prinsiplərinin əsas vəzifələrindəndir. Bunun üçün uşaqların dərketmə imkanlarının, idrak proseslərinin inkişaf qanunauyğunluqlarının və bu prosesin necə aşılanmasının yeni metodlarının müəllimlər tərəfindən öyrənilməsi vacibdir. Ona görə də son illərdə muxtar respublikada, eləcə də Sədərək rayonunda təhsil sahəsində islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün kompleks işlər aparılır. Rayonun ümumtəhsil məktəblərində kurikulum proqramı ilə aparılan tədrisə diqqətlə yanaşılır, yeni təlim metodlarının istifadəsi və onların tətbiqinin reallaşdırılmasına köməklik edilir. Naxçıvan Müəllimlər İnstitutu tərəfindən keçirilən tədbirlər də bu baxımdan əhəmiyyətlidir.

**Xəbərlər şöbəsi**

# Əmir Seyyid Əhməd Oğulşami kimdir?

***Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan epiqrafik abidələr – kitabələr orta əsrlər zamanı bölgədə yaşayan görkəmli şəxsiyyətlər, onların yaşadıqları dövrdə tutduğu mövqe haqqında çox əhəmiyyətli faktlar təqdim edirlər. Belə şəxsiyyətlərdən biri də Əmir Seyyid Əhməd Oğulşamidir. Əmir Seyyid Əhməd Oğulşaminin adına Azərbaycanın epiqrafik abidələri sırasında yeganə olaraq Culfa rayonunun Xanəgah kəndinin qərb tərəfində, Əlincəqalanın ətəyində yerləşən türbənin içərisində saxlanan dörd sətirdə ərəb dilində həkk edilmiş kitabədə rast gəlinir.***



*Əmirxan türbəsinin kitabəsi*

Kitabədə qeyd olunur ki, "bu şərəfli qübbənin (günbəzin, türbənin) bina olunmasına mərhum, xoşbəxt şəhid, Əmir Seyyid Əhməd Oğulşaminin oğlu, sahib əl-əzəm Hacı Məhəmmədin vəfat etmiş oğlu Əmirxan üçün ən böyük sultan, Sultan Cahanşah Bahadır xan zamanında – Allah onun hökmranlığını əbədiləşdirsin – əmr etmişdir. Və adıçəkilən bani (yəni Hacı Məhəmməd) dəvət edən məqbərəyə … əkilmiş yer… bu dəfn yeri olan günbəzə ildə … vəqf etmişdir".

Kitabənin tarix yazılmış hissəsi sınıb itdiyi üçün onun nə vaxt yazıldığını və abidənin inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq mətndə əks olunan faktlara əsasən, onun dövrünü təxmini də olsa müəyyənləşdirmək mümkün olmuşdur. Kitabədən aydın olur ki, günbəz "ən böyük sultan, Sultan Cahanşah Bahadır xan zamanında" inşa edilmişdir. Məlumdur ki, Qaraqoyunlu hökmdarı, "Həqiqi" təxəllüsü ilə şeirlər yazan Cahanşah 1435-1467-ci illərdə hakimiyyətdə olmuşdur. Deməli, günbəz onun hakimiyyəti zamanı, qeyd olunan zaman çərçivəsində inşa edilmişdir.

Orta əsr qaynaqlarında kitabədə adları qeyd olunan şəxsiyyətlərdən Əmir Seyyid Əhməd Oğulşami haqqında müəyyən məlumatlar qalmışdır. Məlumdur ki, 1386-cı ildə Azərbaycan ərazisinə daxil olan və bir sıra şəhərləri tutan Əmir Teymurun qoşunları 1387-ci ilin payızında Əlincəqalanı mühasirəyə almışdır. Həmin vaxt Cəlairi hökmdarı Sultan Əhmədin ailəsi, o cümlədən oğlu Məlik Tahir də qalada idi. Çünki Orta Asiya fatehi Əmir Teymurun Azərbaycana hücumu zamanı Cəlairi hökmdarı Sultan Əhməd dövlətin xəzinəsini, oğlu Məlik Tahir başda olmaqla ailəsini və yaxın adamlarını Əlincəqalada yerləşdirmişdi. 300-ə yaxın döyüşçüsü olan qalanın müdafiəsi Məlik Tahirə, kutvallığı (qala rəisi) isə əvvəlcə Xacə Gövhərə, onun ölümündən sonra Əmir Altuna, Əmir Altunun qətlindən sonra isə Seyyid Əhməd Oğulşamiyə tapşırılmışdı.

Əmir Teymurun tarixçisi Şərafəddin Əli Yəzdinin "Zəfərnamə" əsərindən aydın olur ki, Şəki hakimi Seyyid Əli Sultan Tahiri xilas etmək məqsədilə Əlincəyə gəlmişdir... Onlar Əlincə divarlarına çatanda Sultan Tahir qaladan enmiş və onlara qoşularaq getmişdir. Bundan sonra qalanın müdafiəsinə Əmir Seyyid Əhməd Oğulşami rəhbərlik etmişdir.

Tarixçinin verdiyi bu məlumatdan aydın olur ki, kitabədə adı qeyd olunan Əmir Seyyid Əhməd Oğulşami Əlincə qalasının müdafiəsində iştirak edən, bir müddət isə müdafiəyə rəhbərlik edən sərkərdələrdən olmuşdur. Təsadüfi deyildir ki, haqqında bəhs olunan kitabədə o, orta əsrlər zamanı qoşun başçılarının və sərkərdələrin daşıdığı "əmir" titulu ilə təqdim olunmuşdur.

Adıçəkilən qaynaq bu şəxsiyyətin aqibəti haqqında da dəqiq məlumat verir. Orada qeyd olunur ki, Teymur ordusu Sivas və Şam tərəfə gedəndə Əmirzadə Miranşahın qoşunundan Şeyx Məhəmməd Daruğa və Əmirzadə Şahruxun ləşkərindən Firuzşah göstərişə əsasən, Əlincəqalaya getmiş və qalanın mühasirəsini davam etdirmişlər. Həmin vaxt qalada az adam qalmışdı. Zəiflikdən köhnə dəri, gön və onun kimi vasitələrdən yaşamaq üçün vacibli azuqə hazırlamışdılar ki, o da qalmamışdı. Bütün bu çətinliklərə baxmayaraq, qalanın kutvalı (rəisi) Əmir Seyyid Əhməd Oğulşami son ana qədər müqavimət göstərsə də, nəticədə, onu tutub aləmpənah dərgaha yollamışdılar. Beləliklə, qala tutulmuş, onun müdafiəsinə rəhbərlik edən Əmir Seyyid Əhməd Oğulşami isə əsir götürülərək Əmir Teymurun hüzuruna göndərilmişdi. Həmin vaxt Bağdadda olan Əmir Teymur Əmir Seyyid Əhməd Oğulşami buraya gətirildikdən sonra onun qətlinə fərman vermişdi. Beləliklə, o, Bağdadda edam edilmişdi. Əlincəqalanın süqutu 1401-ci ildə olduğundan ehtimal etmək olar ki, Əmir Seyyid Əhməd Oğulşami həmin ildə qətlə yetirilmişdir. Qətlə yetirilməsi səbəbindəndir ki, kitabədə o, "xoşbəxt şəhid" titulu ilə təqdim olunmuşdur.

Kitabədə Əmir Seyyid Əhməd Oğulşaminin oğlu Hacı Məhəmmədin adına "sahib əl-əzəm" titulu əlavə olunmuşdur. Bu titul onun yaşadığı dövrdə tutduğu yüksək mənsəb və mövqedən xəbər verir. Orta əsrlər zamanı vəzirlərin daşıdığı bu titula əsasən, Hacı Məhəmmədin vəzir olduğunu söyləmək olar. Kitabənin tarixi Qaraqoyunlu hökmdarı Cahanşahın zamanına təsadüf etdiyi üçün, demək olar ki, sahib əl-əzəm Hacı Məhəmməd Qaraqoyunlu sarayında yüksək mənsəb sahibi, vəzir olmuşdur. Bu fikri möhkəmləndirən qaynaqlardan biri də Hacı Məhəmmədin inşa etdirdiyi günbəzin gözəl bir memarlıq abidəsi olmasıdır. XV əsrdə belə bir xatirə abidəsini inşa etdirmək hər adama müyəssər olan iş deyildi. Övladının xatirəsinə bu cür abidə tikdirən adam, şübhəsiz ki, böyük imkanlara, var-dövlətə malik olmuşdur. İnşa etdirdiyi türbəyə əkilmiş yer və sair vəqf etməsi də sahib əl-əzəm Hacı Məhəmmədin dövrünün görkəmli şəxsiyyətlərindən və yüksək mənsəb sahibi, ehtimal ki, vəzir olmasından xəbər verir.

Hacı Məhəmmədin oğlu Əmirxanın Xanəgah kəndində dəfn olunmasına, atası tərəfindən onun qəbri üstündə möhtəşəm türbə tikdirilməsinə əsasən demək olar ki, onlar əslən Naxçıvan torpağından, ehtimal ki, Xanəgah kəndindən olmuşlar. Hacı Məhəmmədin atası Əmir Seyyid Əhməd Oğulşaminin Əlincəqalanın müdafiəsində iştirak etməsi, hətta bir müddət qalanın kutvalı (qala rəisi) olması da bu fikri gücləndirir.

Naxçıvan bölgəsinin Qaraqoyunlu dövlətinin tərkibində olmasını təsdiq edən bu kitabə Azərbaycan epiqrafik abidələri içərisində Qaraqoyunlu hökmdarı, oturaq əhali arasından çıxmış feodallara və iri tacirlərə arxalanaraq köçəri-hərbçi əyanların müqavimətini qırıb mərkəzləşmiş dövlət siyasəti yeridən Cahanşahın adı qeyd edilən ilk epiqrafik sənəddir. Fikrimizcə, mətnində Əlincəqalanın teymurilərə qarşı müqavimətinə rəhbərlik edən Əmir Seyyid Əhməd Oğulşaminin adını əks etdirən bu kitabənin "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində nümayiş etdirilməsi tarixi baxımdan çox əhəmiyyətli olar.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Könül dünyasıdır ana laylası

***Yaşı qədimdən-qədim xalqın söz yadigarı, ulularımızın mirasıdır laylalar. Milli yaddaşımızın yadigarı olan bu nümunələr uzun illər boyu millətin gələcəyi olan uşaqların beşiyi üstdə oxunduğu, adət-ənənələrimizi, zövqümüzü, dəyərlərimizi qoruyub yaşatdığı üçün sevilib, əsrlərin sınağından keçə-keçə nəsillərdən-nəsillərə ötürülüb. Tarixən nənələrimizin sinəsi sözlü-söhbətli olub, bu söz-söhbətlər hikmətli xəzinəyə, haxıştalara, bayatılara, eləcə də nazlamalara, laylalara çevrilib.***

*Əziz oxucular!* Bu yaxınlarda muxtar respublikanın qonağı olmuş Rusiya vətəndaşı Nikolay Korolyovun fikirləri ilə mövzuya körpü salmaq istəyirəm. Onun dediklərindən: "Sizin muğamlarınızı, xalq mahnılarınızı, şeirlərinizi, bayatılarınızı, eləcə də laylalarınızı dinlədikcə, xalçalarınız, xalq yaradıcılığı nümunələriniz ilə tanış olduqca milli ruhunuzun ölməzliyinə, əbədiliyinə heyran oluram. Nə qədər ki bu xalqın, bu millətin yaradıcı gücü, sənətə və sənətkarlığa dövlət dəstəyi var, bu millətə nə şanlı keçmişini unutdurmaq olar, nə də onu məğlub etmək".

İndi isə laylalarımız haqda adını çəkmək istəmədiyim bir ananın sosial şəbəkələrdə paylaşdığı bir fikrini oxucularla bölüşmək istəyirəm: "Əvvəllər mən də övladım üçün tez-tez layla deyirdim. Axırda bezib səsimi telefonun diktafonuna yazmışam. Telefonu qoyuram uşağın yanına, elə bilir ki, mən oxuyuram. Bir dəfə təcrübə edin, çox canqurtaran vasitədir".

Oxucularımız da təsdiq edərlər ki, istəsək də, istəməsək də sərhəd tanımayan qloballaşma prosesi insanların düşüncə tərzini də dəyişdirib. Bu gün ən çətin məsələlərdən biri də qloballaşma prosesi ilə milli adət-ənənələr arasında tarazlığın saxlanmasıdır. Sözsüz ki, bu proses milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə ya düşünülmüş şəkildə, ya da kənar təsirlərdən uzaq, necə deyərlər, öz axını ilə təzyiq etməyə cəhd göstərir. Belə bir şəraitdə, ilk növbədə, adət-ənənələri qoruyub saxlamağın mənəvi borcumuz olduğunu unutmamalıyıq. Bunu dərk etsək də, bəzən ona əməl etmirik. Elə laylalarımızdan uzaqlaşmaq da milli adət-ənənələrimizə soyuq münasibətdən qaynaqlanır.

*Şövkəti nur verib gözlərimizə,*
*Könül dünyasıdır ana laylası.*
*Elə bil qarışıb sözlərimizə,*
*Dilin aynasıdır ana laylası.*
*Əzəldən anadır əzəl kəlməmiz,*
*Ay kimi aydındır, göy kimi təmiz.*
*Müqəddəs şerimiz, ulu nəğməmiz,*
*Ana yaylasıdır, ana laylası.*

Professor Oruc Həsənli ana laylasının musiqili, melodik, poetik mətn olmaqla bərabər, uşaqla ana arasında ilk rabitə yaradan vasitə olduğunu deyir. Qeyd edir ki, uşaq öz anasına, çevrəsinə, ana dilinə, mühitə laylalarla uyğunlaşır, adaptasiya olur. Analar laylalar vasitəsilə övladının yolunda çəkdiyi əziyyətlərin ona xoş olduğunu sərgiləyir. Laylalar vasitəsilə analar həm də ürəklərindəki arzuları dilə gətirirlər. Bu mənada, laylalar təkcə uşağı yatırtmaq vasitəsi deyil, içərisində böyük ideya, estetik məna kəsb edən mətnlərdir ki, orada xalqımızın ruhu, psixologiyası, mənəvi varlığı yaşayır. Bütün bunları gələcək nəslə ötürməyimiz çox vacibdir.

Naxçıvan şəhərindəki 7 nömrəli uşaq bağçasının müəllimi, uzun illər bu sahədə çalışdığı üçün uşaqların psixologiyasına yaxından bələd olan Nəcibə Rzayeva isə uşağa layla demək adətinin yavaş-yavaş unudulduğunu deyir. Bildirir ki, ana laylası ilə böyüdüyümüz üçün bizə laylalar çox əzizdir. Ana laylasında duya bilmədiyimiz tərəflər də var ki, məhz buradakı melodik ünsürlər vasitəsilə o həzin nəğmə uşağın psixologiyasına, ruhuna aşılanır, onun əsl milli ruhda böyüməsində ilkin təkanverici amil olur. Bunun vasitəsilə o, ana dilinə boylanır, laylalardan dil açmağa doğru gedir. Sonra bir müddət keçir və onlar analarının dediyi laylaların bir hissəsini yamsılamağa çalışırlar. Deməli, anaların oxuduğu laylalar uşaqların ruhuna hopur. Bu mənada, laylaların qorunması, yaşadılması çox vacibdir. Sevindirici haldır ki, bəzi kənd yerlərində nənələrimizin uşaqlara laylalar dediyinin şahidi olmuşam. Bu da yaşlı nəslin nümayəndələrinin laylaların melodik, fəlsəfi, poetik ruhunu qoruya bilməsi üçün mənəvi gücü olduğunu bir daha göstərir. Nənə-babasının yanında böyüyən bir çox uşaqlar var ki, onlar laylanın nə demək olduğunu yaxşı başa düşürlər. Təcrübəmə əsaslanaraq onu deyə bilərəm ki, indi az-az cavan ailələrdə analar öz körpəsini laylayla yatızdırır. Belə getsə, laylalar ancaq şifahi xalq ədəbiyyatı nümunələri kimi kitab səhifələrində qalacaq, gələcək nəsil laylalar barədə ancaq kitablardan oxuyub xəbərdar ola biləcək. Buna görə də şifahi xalq ədəbiyyatının bütün nümunələri kimi, laylalarımız da təbliğ olunmalıdır.

Naxçıvan şəhər sakini Adilə Əlimərdanova deyir ki, mən Azərbaycan xalqının bir övladı, bir valideyn olaraq adət-ənənələrimizin, şifahi xalq ədəbiyyatının, eləcə də xalqımızın zəngin yaradıcılıq qabiliyyətinin məhsulu olan laylaların yaşadılmasının tərəfdarıyam. Layla demək kimi qadınlarımızın gözəl adəti unudulmamalı, nəsildən-nəslə ötürülməlidir. Onu da deyim ki, bu günün anası ilə bizdən əvvəlki nəslin valideyni, anası arasında fərqlər var. Bu günün anasının uşaq böyütməklə bağlı qayğıları qat-qat azdır. İndi valideynə gün ərzində uşağın qayğısına qalmaq lazım gəlmir, bu işi valideynlər uşaq bağçalarının öhdəsinə buraxıblar. Təəssüf ki, uşaqları kiçik yaşlarından uşaq bağçasına aparan valideynlər yavaş-yavaş övladla bağlı qayğılardan uzaqlaşır, uşağa get-gedə az zaman ayırırlar.

Şairə Gülsadə İbrahimli uşaqların ana laylası ilə böyüməsinin çox vacib olduğunu laylalarla böyümüş uşaq kimi dərindən dərk edir. Laylaların özünəməxsus, xoş bir musiqisi var. Psixoloqların fikrinə görə, uşaq hətta ana bətnində olarkən analar bol-bol musiqi dinləməlidirlər. Çünki bu, körpələrin rahatlamasına çox yaxşı təsir göstərir. Belə olan halda uşaqları layla zümzüməsindən məhrum etmək ən azı etinasızlıqdır. Mən də bir anayam və övladımın rahat yuxuya getməsi üçün ona layla oxuyuram. Artıq övladım üç yaşını arxada qoysa da, hələ də yatanda məndən layla oxumağımı istəyir. Sevinirəm ki, övladımda ana laylasına qarşı bu qədər sevgi və istək var. Bir şeyi də qeyd etmək istərdim ki, uşaqlıq illərində layla ilə yuxuya gedən hər bir ana öz övladını da bu yolla yatırmalıdır. Bu ən azından hər bir valideyn qarşısında duran mənəvi vəzifədir.

Cəmiyyəti minillərlə yaşı olan qocaman ağaclara bənzədənlər, məncə, yanılmırlar. Bu ağacı, daha doğrusu, hər bir cəmiyyəti bəsləyən, qidalandıran, onun yaşamağını, inkişafını təmin edən köklərin, qaynaqların olması labüddür. Bugünkü Azərbaycan cəmiyyətinin də bəsləndiyi, qidalandığı mənbələr, köklər bizə tarixin mirası olan milli və mənəvi dəyərlərimizdir. Bu köklər birbiri ilə sıx və sistematik şəkildə bağlı, əlaqəlidir. Əgər ağac bu köklərdən birindən faydalana bilmirsə, o ağacın gələcəyinin təhlükə altında qalması qaçılmazdır. Ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik kimi mənəvi dəyərlərimiz olduğu kimi, milli ideologiya, tarix, dil, dinimiz, mədəniyyət və incəsənət, ədəbiyyat, özünüdərk, milli musiqimiz, muğamlarımız, fərdi yaddaşı, etnos yaddaşını, millətin, xalqın yaddaşını ehtiva edən folklorumuz kimi milli dəyərlərimiz də var. Folklorumuzun, şifahi xalq ədəbiyyatının inciləri olan laylalar da daxil olmaqla bu dəyərlərin qədrini, qiymətini bilməliyik.

✍ Səbuhi HÜSEYNOV

---

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamında deyilir: "Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək və bəzək alətləri hazırladıqlarını göstərir. Sonrakı dövrlərdə sənətkarlıq daha da inkişaf etmiş, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, ipəkçilik, boyaqçılıq, papaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq, xüsusilə də xalçaçılıq kimi sahələri genişlənmiş, Naxçıvanın zövqlə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları böyük şöhrət qazanmışdır".*

# Naxçıvanlı el sənətkarları ağacişləmənin gözəl nümunələrini yaratmışlar



Bu sırada ağacişləmə sənətini xüsusi qeyd etmək olar. Tarixi mənbələrdən aydın olur ki, Azərbaycanın bir çox şəhərlərində hələ XI-XII əsrlərdə ağacdan yüksəkkeyfiyyətli bədii ağacişləmə məmulatları hazırlanmışdır. Bu dövrlərdə Azərbaycanda olmuş bir ərəb səyyahının gündəliyində göstərilir ki, Naxçıvanda hazırlanmış və yaxşı rənglənmiş ağac qablar – kasa, tabaq, təknə və sair məmulatlar xaricə göndərilmək üçün ən yaxşı mallar idi. Həmin məmulatlar bədii taxta sənətinin oyma, şəbəkə və xatəmkarlıq üsulları ilə hazırlanmışdır.

Oyma sənəti bədii taxta sənəti sahəsində ən qədimidir. Taxta başqa materiallara nisbətən az davamlı olduğuna görə dövrümüzədək gəlib çatmamışdır. Oyma əsas etibarilə iki üsulda işlənib. Birinci üsulda bəzənilən rəsmlər, naxışlar, yaxud yazılar ağacın o biri üzünə keçməyərək üstdə qalır; ikinci üsul isə bundan fərqli olaraq ikiüzlü olur, yəni çəkilən naxışlar eynilə arxa tərəfə keçir.

Oymanın birinci üsulu ilə işlənmiş taxta kompozisiyalarına Ordubad şəhərinin həyət və məscid qapılarını aid etmək olar. Bu ənənədən muxtar respublikanın Culfa, Babək, Şahbuz, Şərur rayonlarında, eləcə də Naxçıvan şəhərində yaşamış sənətkarlar da məharətlə istifadə etmişlər.

Naxçıvanda memarlığın bütün bəzəkləri binanın daxilində işlənmiş, evin ətrafı isə hasarla hörülmüş olurdu. Gözəçarpan yer darvaza olduğuna görə binaların həyətə giriş qapıları oyma sənətinin birinci üsulu ilə işlənmişdir.

Oyma sənətinin ikinci üsulu ilə işlənmiş sənət nümunələri nisbətən zərif olmuşdur. Muxtar respublikada fəaliyyət göstərən tarix və tarix-diyarşünaslıq muzeylərində qorunub saxlanılan ev əşyaları (sandıq, mücrü, qaşıq və sair) buna misaldır. Oyma sənətinin ikinci üsulu təkcə ev əşyalarının bəzədilməsində deyil, həm də başqa sahələrdə tətbiq edilmişdir. Otaq qapıları, məhəccər, tağ və sair sənətin gözəl, zövqoxşayan nümunələridir. Oyma sənətinə naxçıvanlı sənətkarların hazırladıqları müxtəlifgörünüşlü miz, kətil, kürsü və rəhilləri də misal göstərə bilərik. Bu məişət əşyalarının üzərində müxtəlif məzmun və motivlərdə, xüsusən həndəsi formalarda kəsilmiş ənənəvi naxış sənətinin növlərinə də rast gəlinir. Bu isə naxçıvanlı sənətkarlara məxsus xüsusiyyətlər sırasındadır. Naxışların rəngli, bəzi hallarda isə rəngsiz olmaları elmi araşdırmalarda xüsusi qeyd edilmişdir. Son zamanlara kimi qalmış evlərdə oyma və kəsmə üsulu ilə icra olunmuş pərvaz və sütunların olduğu şəhərləri qeyd edən tədqiqatçılar Naxçıvan şəhərinin də adını fəxrlə çəkirlər.

Bədii taxta tərtibatı sənətinin ən maraqlı üsullarından biri də şəbəkədir. Şəbəkəçilik sənəti tətbiqi incəsənətin böyük sənətkarlıq tələb edən sahələrindəndir. Ötən əsrlərdə yaşamış naxçıvanlı sənətkarlar evlərin qapı və pəncərələrini, arakəsmə, eyvan və şüşəbəndləri, məscidlərdəki minbərləri müxtəlif naxışlı şəbəkələrlə bəzəmişlər. Qapı və pəncərələrin, şüşəbənd və arakəsmələrin bəzədilməsi üçün tətbiq olunan şəbəkə izləri isə milli incəsənətimizin ən gözəl nümunələridir. Şəbəkə üsulu ilə hazırlanmış sənət nümunələrində şəbəkəçiliyin cəfəri və əjdəri növlərindən istifadə edilmişdir.

Ağac üzərində bəzəkaçma sənətinin başqa üsullarından biri də xatəmkarlıqdır. Bu üsul müxtəlif metalların bəzədilməsində tətbiq edilir. Lakin taxta üzərindəki xatəmkarlıq bundan fərqli olaraq daha zərif və rəngarəng olur. Bunu onunla izah etmək olar ki, taxta üzərində işləmək sənətkar üçün metalla işləməkdən daha asandır. Çünki burada sədəf, fil sümüyü, kəhrəba, müxtəlif daş-qaşlardan, rəngli ağaclardan istifadə edilir. Azərbaycan sənətkarları tərəfindən bu üsulla bəzənmiş tar, kamança, saz, mücrü və sair məmulatların olduğunu qeyd edən tədqiqatçılar naxçıvanlı sənətkarların da xatəmkarlıqla məşğul olduqlarını göstərirlər.

**Nizami ƏZİZƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru***

---

# İdmançılar tibbi müayinədən keçirilir



*Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında uşaq, yeniyetmə və gənc idmançılar tibbi müayinədən keçirilir.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının 200-dən çox idmançısı cərrah, nevropatoloq, pediatr, endokrinoloq, ftizatr, oftalmoloqların nəzarəti altında müayinə olunub.

Keçirilən müayinə zamanı həmsöhbət olduğumuz Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov belə müayinələrin mütəmadi olaraq təşkil edildiyini vurğuladı: "Səhiyyə Nazirliyi Gənclər və İdman Nazirliyi ilə birgə uşaqların tibbi müayinədən keçirilməsinə ciddi önəm verir. Hər il həyata keçirilən bu tədbirlərə muxtar respublikada idmanla məşğul olan yüzlərlə idmançı cəlb olunur, onlar hərtərəfli olaraq müayinə edilirlər.

Sağlam olan uşaqlar barədə məlumat hazırlanır və təşkilatçı qurumlara göndərilir. Səhhətində problem olan uşaqlara isə müəyyən vaxt kəsiyində idmandan uzaqlaşmaları məsləhət görülür və onlar müalicə alırlar".

Qeyd edək ki, uşaq, yeniyetmə və gənc idmançıların tibbi müayinəsi ayın 27-nə kimi davam etdiriləcək.

✍ Ceyhun MƏMMƏDOV

***İtmişdir***

Naxçıvan şəhəri, "12-ci" məhəllə, ev 5-də yaşayan Almuradov Elxan Abdulla oğlunun adına olan evin 12448 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 890